# Dağılan memarlıq abidələri



Şəhərdə Bakı Sovetinin erməni daşnak-rus bolşevik qüvvələri azərbaycanlılara qarşı qanlı qırğınları zamanı ictimai və şəxsi binalara da çox böyük ziyan dəymişdir. Belə ki, "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyaları yandırılmış, Bakıda ən iri məscid bombalanmışdı. Bakıda İsmailiyyə Xeyriyyə Cəmiyyətinin binası, Şirvanşahlar Sarayı ansambılına daxil olan XIV əsrdə tikilmiş Keyqubad məscidi, oktyabr ayında Cənubi Azərbaycandakı avşarların məskun olduğu Urmiya şəhərinin abidələrini rus əsgərləri ermənilərlə birlikdə yandırıb külə döndərmişdilər Bununla əlaqədar olaraq, Fövqəladə İstintaq Komissiyasının sənədləri içərisində çoxsaylı materiallar vardı. Belə sənədlərdən biri, 1918-ci il noyabrın 22-də Komissiya üzvləri Məmməd xan Təkinski ilə A. E. Kaluqenin birgə tərtib etdikləri protokolun materiallarıdır. Həmin sənəddə göstərilir ki, bu ilin sentyabrında Azərbaycan – Türk ordusunun Bakı şəhərinə daxil olması ilə Fövqəladə İstintaq Komissiyasının sədri Ələkbər bəy Xasməmmədovun tapşırığı əsasında, komissiyanın üzvü Mirzə Cavad Axundzadə fotoqraf Litvinovun köməyi ilə Bakıda görkəmli ictimai və müsəlmanların şəxsi binalarının şəklini çəkdirmişdi.

1. *Nikolayevsk küçəsindəki "Kaspi" qəzetinin redaksiya binası dağıdılmışdı.*
2. *Müsəlman Xeriyyə Cəmiyyətinin "İsmailiyyə" binasının şərq tərəfi dağıdılmışdı.*
3. *"Dağıstan" mehmanxanasının yerləşdiyi, Bazar küçəsindəki Xanlarovun evi dağıdılmışdır. Burada əsasən müsəlmanlar yaşayırdılar.*
4. *Bazar küçəsindəki keçmiş "İsgəndəriyyə" mehmanxanasının binası dağıdılmışdı. Burada da əsasən müsəlmanlar yaşayırdılar.*
5. *Bazar və Qubernski küçələrinin tinindəki "İslamiyyə" mehmanxanası dağıdılmışdı. Burada da əsasən müsəlmanlar yaşayırdılar.*
6. *Top atəşi nəticəsində Təzəpir məscid binasının cənub tərəfi zədələnmişdir. Həmin binanın şərq hissəsi də o cür dağıdılmışdı.*
7. *Top atəşi nəticəsində Şah məscidi minarəsinin şərq tərəfi zədələnmişdi.*



Hal-hazırkı İstiqlaliyyət, o zamanki Nikolayevskaya küçəsində yerləşən Kaspi qəzetinin yandırılmış redaksiyası.



Hal-hazırda Nizami küçəsi adlanan,

o zamanki Qubernator küçəsi



Bu gün Azərbaycan prospekti adlanan,

o zamanki Bazarnaya küçəsi



Bu gün Tağızadə küçəsi adlanan, o dövr ki

Poçtovaya küçəsi

Həmin hadisələrdən bəhs edən başqa bir sənəddə göstərilir ki, bir dəstə daşnak əsgərləri və Şaumyanın adamları "Cəmiyyəti – xeyriyyə"nin (burada "İsmailiyyə" binası nəzərdə tutulur) qarşısına gəlib o binayi – müqəddəsə, o möhtəşəm imarətə, o müəzzəm binaya xainanə bir surətdə od vurdular, onu yandırdılar.

# “31 mart 1918-ci il” (Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli Mənbələr Fondunda qorunan materiallar əsasında)



AMEA Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları - “Numizmatika və epiqrafika” elmi-fond şöbəsinin böyük elmi işçisi, t.ü.f.d. Aygün Məmmədova, “Elmi kütləvi iş və təhsil” şöbəsinin baş mütəxəssisi Pərvanə Əzimova və “Sənədli Mənbələr” Fondunun müdiri Esmira Rəhimovanın təklif və tərtibatı ilə hazırlanan slaydda AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli Mənbələr Fondunda qorunan 1918-ci il fotolarının surətləri əsasında Bakı, Şamaxı, Ağsu, Göyçay, Kürdəmir, Salyan hadisələri əks edilmişdir.

Qeyd: 1918-ci il hadisələrindən sonra çəkilmiş bu fotoların əsli ABŞ-da şəxsi kolleksiyada qorunurdu. T.e.d., professor Solmaz Tohidi bu fotoları Azərbaycana gətirmişdir.

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, hazırda Beynəlxalq əlaqələr şöbəsinin müdiri Emin Dadaşov 2015-ci ildə bu fotosurətləri (100-dən artıq) muzeyin fonduna təhvil vermişdir.

http://azhistorymuseum.gov.az/az/learn/23